**VİDADİ MUSTAFAYEV**

# BİR DAHA VAHİD BÜTÖV AZƏRBAYCAN ƏRAZİSİ HAQQINDA

**(*“ARAZ ÇAYI AZƏRBAYCANIN ORTASINDAN AXIR!!!”*)**
**(“رود ارس در وسط آذربایجان جاری...“)**

**Bakı – Elm – 2023**

*Kitab AMEA akad. Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutunun Elmi Şurasının qərarı ilə nəşr edilir*

**Elmi redaktor:** **Gövhər Baxşəliyeva**
*akademik*

**Vidadi Mustafayev.** Bir daha vahid bütöv Azərbaycan ərazisi haqqında ("Araz çayı Azərbaycanın ortasından axır!!!" ) ("رود ارس در وسط آذربایجان جاری...") Bakı, Elm, 2023, – 64s.

**ISBN** 978-9952-569-21-6

© Vidadi Mustafayev, 2023

# GİRİŞ ƏVƏZİ

İranda Cənubi azərbaycanlılara qarşı irqi ayrı-seçkilik, milli zülm siyasətinin qondarma elmi-nəzəri əsaslarından birini Cənubi azərbaycanlıların Şimali azərbaycanlılarla birlikdə türk xalqlarından biri olmasını, digərini isə Azərbaycan toponiminin və ya xoroniminin* Şimali Azərbaycana şamil edilməsini inkar etmək təşkil edir. Azərbaycan *xoroniminin* bütün Azərbaycan ərazisinə deyil, yalnız onun cənub hissəsinə şamil edildiyini "sübut etmək" üçün bütöv, nəinki müxtəlif etnosları təmsil edən panfarsistlərdən ibarət "tarixçilər", ideoloqlar ordusu, eləcə də "sanballı" və sanbalsız elmi, elmi-mədəni institutlar gərgin əmək sərf edirlər.

Bizi sadə bir məsələ, Azərbaycan xoroniminin sərhədləri, o cümlədən Arazdan şimaldakı ərazilərin (Azərbaycan Respublikası) həmin sərhədlərlə əhatə edilib-edilməməsi məsələsinin İranın ictimai və elmi fikrində inikası maraqlandırır.

---

* Xoronim təbii və süni mənşəyi olan təbiət obyektlərinin adlarından ibarət olan toponimlərin bir növü olub müəyyən təbii və siyasi, inzibati sərhədləri olan istənilən ərazinin xüsusi adıdır.

İranda Azərbaycan xoroniminin Arazdan şimaldakı ərazilərə aid edilməsi məsələsinə “elmi” və əsasən siyasi və ideoloji münasibət daha çox mübarizə səciyyəsi daşıdığından qeyd edilən məsələyə münasibətin həmin cəhəti mübarizə anlayışı altında nəzərdən keçirilir.

## Azərbaycan xoronimimə qarşı mübarizənin birinci mərhələsi (Şimali Azərbaycan)

Azərbaycan toponiminin Şimali Azərbaycana aid olmasına qarşı mübarizə 1917-ci ildən, Şimali Azərbaycanda Rusiya imperiyasının dağılması prosesi başlanandan sonra yaranmış yeni geosiyasi şəraitdə güclənən milli azadlıq mübarizəsi və müstəqillik hərəkatı zamanı Azərbaycan toponiminin tarixi, coğrafi hüdudları çərçivəsində bərpa edilməsi məsələsi aktuallaşdıqdan sonra başlanmış və daim güclənmişdir. [1; 2] Lakin İranda Azərbaycanın şimalının müstəqilliyi, xüsusən onun tarixi adını bərpa etmək istiqamətində hərəkətinə qarşı geniş siyasi, ideoloji təbliğat fəaliyyətinə baxmayaraq Arazdan şimalda olan ərazilərdə yığcam məskunlaşan Azərbaycan xalqı öz müstəqilliyini və tarixi Azərbaycan adını bərpa etməyə nail oldu.

Maraqlıdır ki, Azərbaycanın Rusiya tərəfindən yenidən işğal edilməsinə, sonra onun ərazisində təsis edilən yeni, formal müstəqil Sovet Sosialist Respublikasının Azərbaycan adlanmasına İran nəinki heç bir etiraz etmədi, hətta artıq 1920-ci ilin may ayında onun müstəqilliyini tanıdığını elan etdi. [3]

Azərbaycan Sovet Sosialist Respublikasının mövcud olduğu dövrdə İranda 1978-79-cu illər antimonarxist inqilabına qədər Azərbaycan xoroniminin Arazdan şimaldakı ərazilərə aid edilməsinə qarşı geniş siyasi, ideoloji təbliğat fəaliyyəti müşahidə edilməmişdir.

Bu sahədə İran tarixçilərindən C.Məşkurun 1969-cu ildə çap etdirdiyi kiçik "İran Azərbaycanının tarixi sərhədləri" adlı məqaləsini qeyd etmək olar. Həmin məqalə sonra yenidən çap olunmuşdur. [4]

Bir neçə orta əsrlər ərəb tarixçisi və coğrafiyaçısının əsərlərinə istinad edən M.C.Məşkurun "elmi" nəticəsi: "Buna görə də, Azərbaycanın sərhədləri az və ya çox dərəcədə hazırki sərhədləridir: şimalda Araz çayı, qərbdə Türkiyə, şərqdə Gilan və Talış, cənubda Kürdüstan, Xəmsə (Zəncan) ilə əhatə olunub". [4, s.50]

Müəllif davam edərək yazır: "Yeganə fərq ondadır ki, bu gün Qarabağ nahiyələri və Naxçıvan Azərbaycan sərhədlərindən kənarda yerləşir və "Sovet Azərbaycanı" adı ilə SSRİ tərkibində müstəqil respublika təşkil ediblər". [4, s.50]

Müəllifin dediyindən belə çıxır ki, Şimali Azərbaycanın əsas ərazisi Qarabağ və Naxçıvandan ibarətdir, hərçənd o, Şimali Azərbaycanın sərhədlərini qeyd edərkən onun cənub-qərbdən Naxçıvan Respublikası (?) ilə həmsərhəd olduğunu yazır. [4, s.50]

Müəllif yazır ki, yarım əsr bundan əvvəl həmin ərazi (nahiyə) Qarabağ adlanırdı. [4, s.51] Daha sonra əlavə edir

ki, Türkiyə 15 sentyabr 1918-ci il tarixində Bakını işğal (?) edib Osmanlının idarəsi altında "Azərbaycan" adlı dövlət yaratdı (?). Türkiyənin məqsədi, müəllifə görə, İran Azərbaycanı və Qarabağ (?) əhalisinin azəri türkcəsində danışdığına əsaslanaraq, İran Azərbaycanını Azərbaycan dövlətinə birləşdirib Arazın hər iki tərəfində öz təsiri altında olan dövlət yaratmaq idi. [4, s.51]

Müəllif son əsrdə Arazdan şimaldakı ərazilərin, yəni Şimali Azərbaycanın guya Qarabağ adlanmasından çıxış edərək belə nəticəyə gəlir: "Deməli, Sovet Azərbaycanının adı tarixi deyil, siyasi və yeni termindir". [4, s.52]

Yazı müəllifi XX əsrin ikinci onilliyinin sonlarına doğru İran ictimai fikrində Azərbaycan Xalq Cümhuriyyətinin adına məlum inkar münasibətini yenidən dilə gətirir və Şimali Azərbaycanı Aran deyil, Qarabağ adlandırır.

Qabağa gedərək deyə bilərik ki, Şimali Azərbaycanı Qarabağ adlandırmaq təşəbbüsü öz davamını tapmamışdır.

Demək olar ki, haqqında danışılan yazı öz dövrü üçün bir istisna təşkil edirdi və 1978-79-cu illər antimonarxist inqilabına qədər Azərbaycan xoronimi haqqında digər yazılara rast gəlinmir.

## Azərbaycan xoronimınə qarşı mübarizənin ikinci mərhələsi (Cənubi Azərbaycan)

İranda Azərbaycan toponiminə qarşı mübarizənin yeni mərhələsi hakim millətçi Pəhləvi rejiminin Cənubi Azərbaycan xalqına qarşı yeritdiyi zorakı assimilyasiya siyasətinin tərkib hissəsi kimi meydana çıxmışdır. Belə ki, XX əsrin 30-cu illərində aparılan inzibati-ərazi islahatında Cənubi Azərbaycanın tarixi toponimlə adlandırılmasının qarşısını almaq üçün ciddi addımlar atılmışdır.

İran Məclisi 16 aban 1316\7 noyabr 1937-ci il tarixində yeni inzibati ərazi təşkili haqqında qanun qəbul etdi və həmin qanuna əsasən İran 6 inzibati vahidə - ostana bölünürdü. Yeni qanuna görə 5 inzibati ərazi vahidi cəhətlərə görə - 1.Şimal - qərb, 2.Qərb, 3.Şimal, 4.Cənub, 5.Şimal - şərq, biri isə rəqəmlə - Altıncı ostan adlandırıldı. Cənubi Azərbaycan siyahıda 1-ci yerdə durur və 6 şəhristandan – Xoy, Rezaye, Mahabad, Təbriz, Ərdəbil və Marağadan ibarət olub Şimal-qərb ostanı\vilayəti adlanırdı. [5, s.119]

Lakin bu qanun bir çox ziddiyyətlərə malik olduğundan qısa ömürlü oldu.

Məclis 14 bəhmən 1316\3 fevral 1938-ci il tarixində inzibati ərazi bölgüsü haqqında yeni qanun qəbul etdi.Yeni

qanuna əsasən ölkə 10 ostana ( vilayət) bölünür və ostanlar sayla (rəqəmlə) adlandırılırdı.

Şimal-qərb əyaləti (Cənubi Azərbaycan) iki yerə bölünərək rəqəmlərlə (3-cü və 4-cü ostan) adlandırıldı. [5, s.120]

Lakin 1945-46-cı illərdə Cənubi Azərbaycanda mövcud olan Milli hökumət Azərbaycan xoronimini bərpa edərək, nəinki 3-cü və 4-cü vilayətləri, həm də Zəncan vilayətinin ərazisini öz hakimiyyəti altında Azərbaycan adı ilə birləşdirdi. Həmin dövrdə Azərbaycan toponimi İranda siyasi, ölkə, etnik ərazi mənası kəsb edir və etnik ərazinin bütövünü olmasa da, əsas hissəsini əhatə edirdi. Milli hökumət devrildikdən sonra Azərbaycan Zəncan vilayəti ondan ayrılması şərti ilə vahid inzibati-ərazi vahidi kimi öz varlığını öz adı ilə yeni qanuna görə qoruyub saxlamışdı. Belə ki 3 tir 1325/24 iyun 1946-cı il tarixində faktiki mövcud olan inzibati ərazi vahidinə qanuni əsas yaratmaq məqsədi ilə 3 və 4-cü ostanların birləşdirilməsi və Azərbaycan ostanı adlandırılması haqqında qanun qəbul edildi. [5, s.124] Milli hökumət devrildikdən sonra (12.12.1946) Azərbaycan, Zəncan vilayəti ondan ayrılması şərti ilə, bir müddət (13 il) vahid inzibati-ərazi vahidi kimi öz varlığını və tarixi adını qoruyub saxladı.

Lakin 3 aban 1338\26 oktyabr 1959-cu il tarixində Azərbaycan ostanı yenidən iki yerə bölünərək 3 və 4-cü ostanlar adlandırıldı. 21 ordibeheşt 1339/11 may 1960- cı il tarixində “Ostandarların (valilərin) vəzifə və səlahiyyətləri

haqqında" qanunun 13-cü maddəsi qəbul edildi və həmin maddəyə əsasən ostanların əvvəlki adları ilə adlandırılması qərara alındı. [5, s.129]. Yeni islahat nəticəsində Azərbaycan yenidən ikiyə bölünmüş vəziyyətdə qalır və 3 rəqəmi əvəzinə Şərqi Azərbaycan və 4 rəqəmi əvəzinə Qərbi Azərbaycan ifadəsi işlənir.

Pəhləvi rejiminin Azərbaycana münasibətinin göstəricilərindən biri də onun coğrafi, tarixi və etnik baxımdan ayrılmaz tərkib hissəsi olan Zəncan bölgəsinin Azərbaycan inzibati ərazi vahidinə daxil edilməməsidir.

Belə ki, ölkə 6 ostana bölünəndə Zəncan Xəmsə adı ilə Şimal ostanına daxil edilmişdi. Ölkə 10 ostana bölündüyü zaman Zəncan Zəncan kimi qeyd edilərək Birinci ostana daxil edildi. Qeyd edildiyi kimi, 1945-ci ildə Zəncan Azərbaycan Milli hökumətinin tərkibinə daxil edildi. Azərbaycan ostanının faktiki vəziyyəti hüquqi cəhətdən təsbit edilərkən, Zəncan onun tərkibindən çıxarıldı. Ostanlar yenidən köhnə adları ilə adlandırıldığı zaman Zəncan Gilan adlandırılan birinci ostanın tərkibində qaldı. Zəncan 1348\1969-cu ildə General-qubernatorluq və 1352\1973-cü ildə müstəqil ostan oldu.

Nəzərdən keçirilən dövrdə, göründüyü kimi, Zəncan bölgəsi Azərbaycan ölkəsinin tərkibindən çıxarılmış, Azərbaycan toponimini digər tarixi adlar kimi siyasi, inzibati ərazi terminologiyasından çıxarmaq siyasəti yeridilmiş, lakin

həmin siyasətdən geri çəkilməyə məcbur olunsa da, Azərbaycan xoronimi müstəqillikdən məhrum edilərək Şərqi və Qərbi təyinləri ilə parçalanmış halda bərpa edilmişdir.

Bununla azərbaycanlıların etnik ərazi, inzibati ərazi (siyasi) birliyi və buna uyğun olaraq etnik\milli və ərazi kimliyinin parçalanması istiqamətində addım atılmış oldu.

# Azərbaycan xoronimlnə qarşı mübarizənin üçüncü mərhələsi (Şimali və Cənubi Azərbaycan)

**a) Şimali Azərbaycan**

Azərbaycanın Araz çayından şimaldakı ərazilərinin - Azərbaycan Sovet Sosialist Respublikasının SSRİ-nin süqutu zamanı öz müstəqilliyini bərpa etməsi günlərində və ondan sonra Azərbaycan xoroniminin Arazdan şimaldakı ərazilərə aid edilməsinə qarşı heç bir tarixi, etnik-coğrafi, beynəlxalq hüquqa əsaslanmayan, məntiqə söykənməyən mübarizənin yeni mərhələsi başlanmış və indiyə kimi davam etməkdədir.

Azərbaycanın Arazdan şimalda yerləşən ərazilərinin Azərbaycan adlandırılmasına qarşı mübarizə aparan panfarsist, millətçi dairələr heç bir tarixi əsası olmayan bir müddəadan çıxış edirlər. Həmin müddəa, qeyd edildiyi kimi, heç bir əsası olmayan fikirdə - 1918-ci ilə qədər həmin ərazinin guya Azərbaycan adlanmaması iddiasında əks olunmuşdur.

Həmin iddia Azərbaycan azərbaycanşünaslığında çoxdan əsaslı şəkildə rədd edilsə də, qeyd edildiyi kimi, İranda aktual mövzu kimi gündəlikdə saxlanır və onun ətrafında müxtəlif səpkili, səviyyəli, xarakterli, o cümlədən "elmi" ədəbiyyat çoxalmaqda davam etməkdədir.

Haqqında danışılan məsələ ilə bağlı yazılardan birinin müəllifi etiraf edir: “Azərbaycan Respublikasının adının saxta olduğu haqqında saysız hesabsız məqalə yazılıb”. [6]

İstinad edilən müəllif digər qərəzli ideoloqlar kimi iddia edir ki, yalnız 1918- ci ildə Türkiyənin\Osmanlının təkidi ilə Arazdan şimalda azərbaycanlıların yaşadığı əsas ərazilər Azərbaycan və həmin ərazidə təsis edilən müstəqil dövlət Azərbaycan Xalq Cümhuriyyəti adlanıb. Müəllif öz iddiasını guya sübut etmək üçün indiyə kimi bütün millətçi və qərəzli müəlliflərin dəfələrlə istifadə etdiyi qədim yunan (Strabon e.ə. 63-e. 23-24) və romalı (Böyük Plini 22-79) və 8 orta əsrlər ərəb tarixçisi və coğrafiyaçısının əsərlərindən çıxarışları “orijinal sənədlər” kimi təqdim edir və bunu ona görə edir ki, “ən tələbkar iranlılar, xüsusən Azərabadeqanda (Azərbaycanda) yaşayan İRANLILARın bu barədə artıq heç bir sualı qalmasın”. [6]

Müəllif iddialarında bir az da qabağa gedərək Yunanıstan-Makedoniya münasibətlərini nümunə göstərərək yazır: “Hələ də Azərbaycan adını dəyişmək imkanı vardır”. [6]

Azərbaycan xoronimininin Şimali Azərbaycana aid olmaması və guya Osmanlı imperiyasının icadı olduğu antiazərbaycan yazılarının əsas istinad müddəaları olub bütün yazılarda təkrar edilir. Bunu göstərmək üçün bir neçə yazının adını qeyd etmək kifayətdir. [7-13]

Şimali Azərbaycanın Azərbaycan adlanmadığı sahəsində ardıcıl “elmi” fəaliyyət göstərmiş “professor”, bədnam

İnayətulla Rza həmin mövzuda yazdığı məqalələrdən birində birinci cümlədə elə belə də deyir:

"... Qafqazda Arazdan şimaldakı ərazi 1918-ci ilə qədər heç vaxt Azərbaycan adlanmayıb...". [14]

Həmin ideyanı İranda və xüsusən Cənubi Azərbaycanda təbliğ etmək üçün 1379\2000-ci ildə ayrıca "Aran" adlı Mədəniyyət müəssisəsi yaradılmış, onun öz mətbu orqanı ("Aran" sonra "Azər Aran" jurnalı), bir neçə saytı fəaliyyət göstərir. 2007-ci ildə institutun nəzdində "Aran analitik informasiya" agentliyi təsis edilib. Yazılar həmçinin Azərbaycan dilində latın qrafikasında yayımlanır.

İnstitutun özü haqqında məlumatında, o cümlədən deyilir ki, onun əsas vəzifələrindən biri region (Cənubi Azərbaycan - V.M.) əhalisinin öz tarixi və mədəniyyəti (İran və fars - V.M.) ilə tanış olmasına yardım etmək, həmin sahədə kənarlaşmaların (iranlılıq=farslıq kimliyindən uzaqlaşmaq - V.M.) qarşısını almaq və s. ibarətdir.

Qeyd edilən sahədə ciddi fəaliyyət göstərən qurumlardan biri də "Qədim diyar" ("Diyare kohən") tarix və mədəniyyət müəssisəsidir. Müəssisə qeyri hökumət qurumu kimi 2012-ci ildən fəaliyyət göstərir. Müəssisə əsasən antiazərbaycan və antitürk məzmunlu kitablar sifariş və çap etdirməklə məşğul olur. Müəssisə Cənubi Azərbaycanın ikinci Kəsrəvisi adlandırıla bilən Rəhim Nikbəxt ( 2021-ci ildə - vəfat edib) tərəfindən təsis və idarə edilirdi.

Azərbaycanın şimalının guya heç vaxt Azərbaycan adlanmadığı mövzusu İranda azərbaycanşünaslığın əsas mövzularından biri olaraq qalır. Buna nümunə olaraq Tehranda Müasir İran tarixi araşdırmalar İnstitutunun 2018-ci ildə keçirdiyi konfransı göstərmək olar. [15]

Beynəlxalq konfrans Qafqaz Respublikalarının müstəqilliyinin birinci mərhələsinin 100 illiyinə həsr olunmuşdur.

Birinci çıxış edən Məsud İrfanyanın çıxışının sonunda Şimali Azərbaycanın Azərbaycan adlandırılmasından danışılıb. O öz çıxışında, Şirvan, Gəncə və Bakı xanlıqlarının 1918-ci ildə ilk dəfə Azərbaycan adlandırılması ilə bağlı məlum fikirləri təkrar etmişdir.

Konfrans haqqında hesabata əsasən bir məsələni vurğulamaq lazımdır ki, çıxış edənlərin bəziləri təqdim etdikləri mövzularla bağlı İranın elmi fikrində "itirilmiş ərazilər"lə bağlı qəbul edilmiş elmi klişeni təkrar edərək, İranın maraqları və antitürkiyə mövqeyi çərçivəsində elmi, obyektiv yanaşma sərgiləməyə çalışmışlar. Həmin sözləri konfransın sonuncu çıxış edəni, azərbaycanlı və gəlir və mövqeyini milli şərəfi hesabına əldə etməyə çalışan Salar Seyfəddini haqqında demək olmaz.

Onun çıxışı haqqında verilən məlumatda, o cümlədən aşağıdakı fikirlər ön plana çıxarılıb.

O deyib: "Azərbaycanın varlığının səbəbinin iki əsas prinsipi var:

1. Siyasi və sifarişli baxışlara əsaslanaraq, onun [Azərbaycanın] varlığı üçün bir sıra əsassız səbəblər düşünülüb və həmin səbəblər bu ölkənin dərs kitablarında şagirdlərə təlqin edilir;

2. Bu ölkənin [Azərbaycanın] varlığı və bu varlığın sübutu İranın varlığının inkarına bağlıdır”.

Çıxış edən cəfəng müddəalar (dərsliklərdə ideoloji baxışların yer alması) əsasında cəfəng nəticə (dərsliklərin müharibəyə səbəb olması) çıxararaq onu İran-Azərbaycan münasibətlərinin gələcəyi üçün təhlükə hesab edir.

O deyır: “Bu nəzəriyyə ilə biz İraqdan tanışıq. 1970-ci ildən dərsliklərdə antiiran ideologiyası əks olunurdu. Bu da iki ölkə arasında müharibəyə səbəb oldu”.

Bədnam çıxışçı Azərbaycan toponiminin Arazdan şimala aid edilməsi haqqında danışmayıb, Azərbaycan Respublikasının təsis edilməsinin heç bir siyasi, tarixi və s. şərtləri olmadığını, eyni zamanda onun İran üçün təhdid olduğu kimi sərsəm fikirlər səsləndirib. [15]

Konfransda çıxış edənlərdən heç kim bu qədər sərsəm, təhrikedici fikirlər irəli sürməyib.

Bədnam “azariha” saytının təsisçiləri və ən fəal yazarlarından olan çıxışçı artıq Qafqaz Araşdırmaları Fondunda qonaq araşdırıcı, Müasir Tarix Araşdırmaları İnstitutu, Prezident yanında Strateji Araşdırmalar Mərkəzi və Daxili İşlər Nazirliyinin Strateji Araşdırmalar və Tədris Mərkəzində elmi işçi

olmağa nail olub. Onun antiazərbaycan, antimilli\antitürk mövqeyi karyera pilləsi ilə yüksəlişinin əsas şərtidir.

Çıxışçının məruzəsinin əsas tezisləri onun Azərbaycan Respublikasına düşmənçilik münasibətini və heç bir əsasa söykənməyən iftira, böhtanlardan doğan təhrikedici fikirlərini əks etdirir. Belə başa bəla azərbaycanlı tədqiqatçılar xalqın tarixinin qara ləkələrini təşkil edirlər.

İranda Azərbaycana və türklərə düşmənçilik münasibəti bəsləyən və belə münasibəti qızışdıran panfarsist dairələr Azərbaycan (Azərbaycan Respublikası və ya Şimali Azərbaycandan danışarkən) xoronimindən istifadə etməmək üçün müxtəlif adlar uydururlar: Qarabağ, İrane Şimali (Şimali İran), Aran, Qafqaz, Bakı Respublikası.

İranın antiazərbaycan mövqeyində duran alim və ideoloqlarının bədnam iddiaları və gəldikləri nəticələr Şimali Azərbaycan azərbaycanşünaslığında çoxdan əsaslı şəkildə rədd edilsə də, qeyd edildiyi kimi, İranda həmin məsələ aktual mövzu kimi gündəlikdə saxlanır və onun ətrafında ədəbiyyat çoxalmaqda davam etməkdədir.

### b) Cənubi Azərbaycan

Azərbaycan Respublikasının öz müstəqilliyini bərpa etməsinə ziddiyyətli münasibət sərgiləyən İran son nəticədə karvandan geri qalmamaq üçün onun müstəqilliyini ilk (25 dekabr 1991, 5-ci) tanıyanlardan biri olmuşdur.

İran İslam Respublikası öz müstəqilliyini bərpa etmiş Azərbaycan Respublikasında daxili, dini, etnik, tarixi, həmçinin Ermənistanın hərbi təcavüzü nəticəsində yaranmış beynəlxalq vəziyyətini düzgün qiymətləndirməyərək burada öz təsirini qısa müddətdə gücləndirə biləcəyni güman edirdi.

İran İslam Respublikası az sonra Azərbaycanda İranın təsirini gücləndirə biləcək qüvvələrin zəif olduğu və əksinə Birinci Qarabağ müharibəsi zamanı Cənubi azərbaycanlıların Şimali azərbaycanlılarla geniş həmrəylik nümayiş etdirdiyini nəzərə alaraq  antiazərbaycan siyasəti yeritməyə başladı.

İranın həmin istiqamətdə ilk addımı Cənubi Azərbaycanda Azərbaycan toponiminimə qarşı yönəldi.

Belə ki, 5 mehr 1371\27 sentyabr 1992-ci il tarixində hökumət Şərqi Azərbaycan ostanının\vilayətinin bir hissəsində "Savalan ostanı" təsis edilməsi haqqında qanun layihəsi  qəbul edir və 22 mehr 1371\14 oktyabr 1992-ci il tarixində baxılmaq üçün İslam Şura Məclisinə göndərir. [16]

Qanun layihəsi Məclisin  22 dey 1371\12 yanvar 1993-cü il tarixli 69 saylı  iclasında baxılmış və təsis ediləcək yeni ostanın adının Şərqi Azərbaycan adlandırılması haqqında qərar qəbul edilmişdi. Nəzərdə tutulurdu ki, Şərqi Azərbaycan Mərkəzi Azərbaycan, yeni ostan isə Şərqi Azərbaycan adlandırılacaq. [17]

Məclisin 15 fərvərdin 1372\ 4 aprel 1993-cü il tarixində keçirilən iclasında Mərkəzi ostan anlayışının "təhlükəli" cəhətləri nəzərə alınaraq Mərkəzi yerinə Orta Azərbaycan termini işlətməyin daha məqsədəuyğun olduğu qərara alındı. Məclisin 22 fərvərdin 1372\11 aprel 1993-cü il tarixində keçirilən iclasında Orta Azərbaycan termini münasib bilinmədi və yeni ostanın Ərdəbil ostanı adlandırılması qərara alındı [18] və bununla bağlı Məclis 1 maddəlik qanun qəbul etdi. [16]

Məclis yeni ostanın təsisi ətrafında müzakirələr imitasiya edərək, sonda zahirən hökumətin layihəsinə bir formal dəyişiklik etdi. Bu dəyişiklik Savalan toponiminin Ərdəbil toponimi ilə əvəz ediməsindən ibarət idi.

Lakin mahiyyət etibarı ilə hökumətin nəzərdə tutduğu ideya – Azərbaycan toponiminin (Şərqi Azərbaycan timsalında) rəsmi funksiya dairəsinin daha da məhdudlaşdırılması - Məclis tərəfindən dəstəkləndi. Yeni ostanın Savalan və ya Ərdəbil adlandırılmasının elə bir əhəmiyyəti yox idi, çünki hər iki halda Azərbaycan terminindən imtina edilirdi.

Nəticədə azərbaycanlıların əsas kompakt yaşadıqları ərazinin daha bir hissəsi Azərbaycan toponimi dairəsindən çıxarıldı. Başqa sözlə, Azərbaycan toponiminin əhatə etdiyi ərazi xeyli kiçilmiş oldu.

Bütün bunların nəticəsində Cənubi Azərbaycanın etnik-coğrafi ərazisinin hüdudları haqqında dolaşıqlıq yaranmış olur və Cənubi Azərbaycan haqqında danışarkən gah 4

ostan (Şərqi Azərbaycan, Qərbi Azərbaycan, Ərdəbil, Zəncan), gah da 3 (Şərqi Azərbaycan, Qərbi Azərbaycan, Ərdəbil) ostan nəzərdə tutulur.

Azərbaycan vahid inzibati ərazi statusundan məhrum edildikdən və toponimin əhatə etdiyi inzibati ərazinin kiçildilməsindən sonra onun əhatə etdiyi etnik-coğrafi ərazi bir çox halda Şimal-qərb termini ilə adlandırılır. Həmin addım Azərbaycan toponiminin bir etnik-coğrafi ərazi, ölkə adı kimi işlədilməsinin qarşısının alınmasına yönəlmişdir. Doğrudan da hazırda bir çox sahələrdə həmin termin rəsmi toponim kimi, digər sahələrdə isə ölkəşünaslıq funksiyasında işlədilir.

# İranda Azərbaycan toponiminə obyektiv elmi yanaşmalar

Azərbaycanın şimalının (Şimali Azərbaycanın) tarix ərzində Azərbaycan adlandırılmaması müddəasının heç bir tarixi əsasa söykənmədiyini artıq İranda da başa düşür və həmin istiqamətdə az saylı da olsa, elmi əsərlər meydana gəlir. Başqa sözlə, İran elmi fikri uzun illər ictimai fikirdə hakim olan zərərli konsepsiya və müddəanın təshih edilməsinin zəruriliyini dərk etdiyini göstərməyə başlayır.

İndiyə qədər Azərbaycan xoronimi haqqında obyektiv mövqedən yazılmış cəmi bir neçə əsərin (məqalənin) adını qeyd etmək olar.

Azərbaycan xoroniminin sərhədləri məsələsini ayrıca araşdıran iranlı müəlliflərdən Səməd Sərdariniya [19] əsas diqqəti panfarsist ziyalıların ərəb mənbələrinə birtərəfli və qərəzli şəkildə yanaşmalarına yönəldərək Azərbaycan xoroniminin "hər iki Azərbaycanı əhatə etdiyini əyani şəkildə göstərmişdir". [2, s.81]

Digər iranlı müəllif Həsən Raşedi [20] panfarsist müəlliflərin "istinad etdikləri mənbələrdən gətirdikləri iqtibasları diqqətlə araşdıraraq, onların mənbələri şüurlu şəkildə saxta-

laşdırdıqlarını göstərmişdir. O, Şimali və Cənubi Azərbaycanın bir ölkə kimi həmişə Azərbaycan toponimi ilə qeyd edildiyini nümayiş etdirmişdir". [2, s.81]

Yazıları haqqında danışılan müəlliflər Orta əsrlər yazılarına yanaşmada müəyyən dərəcədə birtərəfliyə yol vermişlər, çünki onların əsərlərində Azərbaycan xoronimi haqqında orta əsrlər mənbələrində vahid mövqe müşahidə edildiyi iddia olunur.

Universitet müəllimi Əziz Talenin araşdırılan məsələyə həsr edilmiş "İslam dövründə Azərbaycanın sərhədləri" adlı [21] məqaləsində orta əsrlər Şərq müəlliflərinin əsərlərinə daha diqqətli yanaşma sərgilənir.

Aşağıda müəllifin məqaləsinin geniş icmalı verilir.

Müəllif Azərbaycan toponiminin əhatə etdiyi ərazi haqqında həmin mövzuda yazan digər müəlliflər kimi İslam dövrü tarixçi və coğrafiyaşünasların əsərlərindən əvvəlcə Azərbaycan və Aranın ayrı-ayrı coğrafi ərazilər olması haqqında iqtibasları qeyd edir.

Həmin müəlliflər sırasında İbn Fəqih ( 291 h.q.\903-cü ildə yazdığı əsərdə), İbn Xordadbeh (III h.q.) İstəxri [850-934], İbn Hövqəl [943-988], İbn Reste (III-IV h.q.), Zəkəriyyə Qəzvini (VII h.q.),Yaqut Həməvi (VII h.q.), Həmdullah Moustofi [21] kimi müəlliflərin adları qeyd edilir.

Müəllif adı çəkilən tarixçi və coğrafiyaşünasların heç də hamısının Araz çayını sərhəd kimi qeyd etmədiyini vurğulayır. Məsələn, İbn Fəqihin Bərdəni, İbn Xordadbehin Gəncəni, İstəxrinin Naxçıvanı, Yaqut Həməvinin Bərdəni Azərbaycan ərazisi kimi göstərdiyini qeyd edir. [21]

Müəllif sonra Azərbaycan toponiminin Arazdan şimal və cənub ərazilərini əhatə etdiyi haqqında orta əsrlər tarixçi və coğrafiyaşünaslar və bir sıra sonrakı müəlliflərdən iqtibaslar gətirir.

Həmin müəlliflər sırasında Yəqubi ( - 897), İstəxri [850-934], Məsudi (896-956), Bəlami ( --974), İbn Hövqəl [943-988] və İbn Əsirin (1160-1233) adlarını qeyd edir.

İbn Hövqəl [943-988] və İstəxri [850-934] hər iki Azərbaycanı bir ölkə\sərzəmin [fars dilində çox mənalı termin kimi təqdim edilir, İranda elmi məqalədə dövlətin ərazisi mənasında, vikipediyada isə coğrafi ərazi, dövlətin ərazisinin bir hissəsi, digər ölkənin hakimiyyəti altında olan ərazi və ya yerli muxtariyyətə malik olan ərazi mənasında işlənir] və bir iqlim [fars dilində sərzəmin və xette (ərəbcə ölkə, ərazi, bölgə) terminlərinə sinonim kimi eyni və oxşar mənalarda işlənir] kimi nəzərdən keçirmişlər.

Müəllif Azərbaycanın ərazisi və sərhədləri, Azərbaycan-Aran münasibətləri haqqında ziddiyyətli fikirlərin olduğunu, hətta eyni müəlliflərin ziddiyyətli mövqe sərgilədiyini göstərərək həmin ziddiyyəti izah etməyə cəhd edərək

bir sıra müasir iranlı müəlliflərin fikirlərini qeyd edir. Bu sahədə əsas fikir ondan ibarətdir ki, İranda və Azərbaycanda Ərəb xilafətinin təsbit edilməsi və əhalinin İslam dinini qəbul etməsindən sonra Arazdan cənubdakı və şimaldakı ərazilər vahid hakimiyyət, bir valinin hakimiyyəti altında birləşdirildiyindən Aran Azərbaycana tabe edilirdi. Azərbaycanın islamlaşmasından sonra müsəlman əhalinin ərazisi əsasən Azərbaycan kimi qeyd edilir və Aran adı unudulmağa başlayır. [21]

İstinad edilən müəllifin iranlı müəlliflərin əsərlərindən gətirdiyi fikirləri daha dəqiq formada belə ümumiləşdirmək olar ki, Azərbaycan Arazdan cənubda və xüsusən şimalda müsəlman əhalinin yaşadığı ərazinin xoronimi olaraq dini vəhdətin ifadəsi kimi çıxış edirdi. Başqa sözlə, Cənubi Qafqazda və Arazdan cənubda müəyyən təbii-coğrafi sərhədlər daxilində yaşayan müsəlman əhalisinin vətəni Azərbaycan idi və həmin ərazi Azərbaycan adlanırdı.

Müəllif Səlcuqlardan (1038-1158) sonra Aranın Azərbaycana birləşdirildiyi və Aran sözünün bir toponim kimi unudulduğuna diqqət çəkir.

Müəllif istifadə etdiyi ədəbiyyatda Səlcuqlar dövründə Aran terminindən istifadə edilməməsinə dair məlumatı diqqətə çatdırır. Həmin məqsədlə o, Rəhim Rəisniyanın "İran tarixində Azərbaycan" əsərində qeyd edilən mühüm bir fakta

diqqət yetirir. Belə ki, Rəhim Rəisniya mərakeşli coğrafiya-şünas və kartoqraf Şərif İdrisinin (493-560\1100-1165) təx-minən hicri 549-cu ildə (1154) tərtib etdiyi və 1928-ci ildə alman Konrad Müllerin latın əlifbası ilə nəşr etdiyi xəritəyə istinad edərək yazır ki, Şərif İdrisinin xəritəsində Qafqaz dağları və Kür çayı arasındakı torpaqlar "Adri Azərbaycan" (son\arxa və ya yuxarı Azərbaycan) Araz və Kür çayları ara-sındakı torpaqlar "Ardıbar Azərbaycan" /qalan hissə/" və in-diki İran Azərbaycanı "Azərbaycan torpağı" adlanır. [21]

Göründüyü kimi, məqalə müəllifinin istinad etdiyi əsər-də Arazdan şimaldakı ərazilər Azərbaycanın hissələri kimi qeyd edilmişdir.

Məqalə müəllifi daha sonra yazır ki, coğrafiyaşünasların və İslam tarixçilərinin mötəbər yazılarına görə, "Aranın Azərbaycandan inzibati və siyasi asılılığına baxmayaraq, ən azı Səlcuq [türklərinin] köçü dövrünə qədər Araz çayı Azər-baycanın şimal sərhədi olub. Lakin Səlcuqlular dövründən başlayaraq, Səlcuqların bütün bölgəyə tam hökmranlığı ilə əlaqədar olaraq, Aran və Azərbaycan xalqları **dil, mədəniy-yət, dini və müəyyən dərəcədə siyasi** cəhətdən bir vahid təşkil ediblər. Müvafiq olaraq, Səlcuq türklərinin hakimiy-yəti dövründən Aran əvəzinə Azərbaycan adının hallanması (bəzilərinin beynindəki məqsəd, sui-qəsd və siyasi planlar-dan asılı olmayaraq) o qədər də qeyri-təbii və gözlənilməz

görünmür. Çünki Aran torpağı getdikcə öz adını itirməkdə idi”. [21]

Oxucu yuxarıda deyilənlərdən belə nəticə çıxara bilər ki, ən geci XI əsrdən Araz çayından şimalda yerləşən ərazi Azərbaycan adlanmağa başlayır. Halbuki müəllif Ərəb xilafətinin əvvəllərindən, yəni Azərbaycan tam işğal edildikdən (644), Xilafət hakimiyyəti tam bərqərar olduqdan (836) sonra, yəni hicri III əsrin sonları –IV əsrin əvvəllərindən (miladi IX-X) Araz çayından şimalda olan ərazilərin Azərbaycan adlandırıldığını göstərir. Bu halda Azərbaycanın Araz çayından şimal və cənub hissələrinin artıq IX əsrin 40-cı illərindən Azərbaycan adlandırıldığını söyləmək olar.

Müəllif Azərbaycanın şimal hissəsinin Azərbaycan adlandırıldığı haqqında daha bir məlumatı qeyd edir. Həmin məlumat “Borhane qate” adlı məşhur izahlı lüğət\ensiklopediya kitabında qeyd olunub.

Hindistanda yaşayıb yazan Məhəmməd Hüseyn ben Xələfe Təbrizi və ya Borhane Xələfe Təbrizi 1652-ci ildə yazdığı “Borhane qate” adlı fars dilinin izahlı lüğətində Aran və Dərbəndi Azərbaycan hüdudları daxilində göstərmişdir. [21]

Deyiləni nəzərə alsaq, vurğulaya bilərik ki, təbrizli müəllif Hindistanda belə Azərbaycan toponiminin Arazdan şimala şamil edildiyi fikrinin mövcud olduğunu təsdiqləyir.

Yəni yalnız Azərbaycanda deyil, Hindistanda belə Azərbaycanın vahid bir ölkə olduğu haqqında məlumat geyd edilmişdir.

Nəhayət, müəllif Rza şah Pəhləvinin hakimiyyəti illərində (1925-1941) belə Əli Əkbər Dehxoda ("Dehxoda lüğəti", birinci cild, 1319\1940) və Məhəmmədəli Tərbiyyətin ("Daneşməndane Azərbaycan", 1935) Dərbənd və Aranı Azərbaycan ərazisi kimi göstərdiklərini vurğulayır. [21]

Azərbaycanda və indiki İranda hələ IX və ən geci XI əsrdən XX əsrin birinci yarısına qədər bir zamanda Arazın şimal hissəsinin Azərbaycan adlandırıldığı haqqında məlumatları qeyd edən müəllif yazır: "İran Azərbaycanının şimaldakı qonşusu 1918-ci ildən, Musavat Partiyası orada hökmranlıq etdiyi vaxtdan, rəsmi olaraq Azərbaycan kimi tanınıb, indi isə Sovetlər İttifaqının dağılmasından sonra coğrafi xəritələrdə Azərbaycan Respublikası kimi meydana çıxıb". [21]

Müəllif həmin siyasi addımın guya tarixi əsası olmadığını əsaslandırmaq üçün yazının təbii axarından alınan tarixi nəticəyə zidd olaraq aşağıdakı iddianı irəli sürür.

"Tarixi sənədlərə əsaslanaraq aydın olur ki, ... o ərazi [Şimali Azərbaycan] **Azərbaycan adlanmamış** və mənfur Gülüstan və Türkmənçay müqavilələrinə ***qədər*** İranın ***Aran*** adlı ən mühüm əyalətlərindən birini təşkil etmişdir". [21]

Bəs necə olur ki, IX və ən geci XI əsrdən sonra Aran adı unudulur, amma XX əsrin ikinci dekadasının sonuna doğru Şimali Azərbaycan/Araz çayından şimaldakı ərazilər yenidən ARAN adlanırmış.

Doğru araşdırma və faktlardan əyri nəticə almaq həqiqəti inkar edənlərin və inkar etmək istəyənlərin ən əsas vasitəsidir. Araşdırma tarixi həqiqətlərə, faktlara söykənsə də, alınan nəticə siyasi, ideoloji tələblərə və konyukturaya cavab verməyə hesablanır.

Həmin məqalə İran elmi fikrində Azərbaycan toponimi məsələsinə münasibətdə geriyə bir addım kimi baxıla bilər. Belə ki, məqalədə toponimin tarixi və əhatə dairəsi araşdırılarkən tarixi mənbələrə əsaslanaraq düzgün mülahizələr irəli sürülsə də, yenə də "lazımi" nəticə əldə edilir.

İran elmi və ictimai-siyasi fikri arasında əlaqələrin ən xarakterik cəhəti siyasi qərarların qəbul edilməsi və ictimai fikrin formalaşdırılmasında ictimai elmlərin nailiyyəti və nəticələrinə istinad etmək əvəzinə, müxtəlif siyasi-ictimai, siyasi-dini, siyasi-hərbi dairələrin, hakim etnik qrupun konyuktur maraqlarından çıxış edilir.

İstənilən tədqiqatçı, araşdırıcı və maraqlı olan oxucu İranın obyektivlik və tarixilik prinsipinə əməl edən həqiqi alimlərinin əsərlərində İranda bütün daxili ictimai, siyasi, mədəni və s. proseslərə, onun xarici əlaqə və münasibətləri-

nə, eləcə də dünyada baş verən proseslərə doğru-düzgün yanaşma sərgiləndiyinin şahidi ola bilər. Deyilən proseslərə İranda mövcud həqiqi elmi yanaşma ilə daxili və xarici siyasət və ən mühümü həmin siyasətin əsaslandırılmasına həsr olunmuş müxtəlif xarakterli, səpkili, həcmli yazıları müqayisə edəndə aydın şəkildə qeyd edilən fərqi görmək olar.

Bunu İranda da az-az desələr də, çox yaxşı dərk edirlər.

Yuxarıda istifadə edilən yazı deyilənlərə əyani bir nümunədir. Şərh mənbə və faktlara əsaslandığından elmi xarakter daşısa da, nəticə hakim millətçilik sifarişinə uyğunlaşdırılır.

Yazının yeni cəhətlərindən biri, qeyd edildiyi kimi orta əsrlər mənbələrinə obyektiv yanaşma nümayiş etdirilməsidir. Həmin yanaşma göstərir ki, doğrudan da Orta əsr mənbələrində Azərbaycanın həm Aran və Azərbaycan, həm də ancaq Azərbaycan adlandırılması faktlarına rast gəlinir. Yalnız sistemli və tarixi yanaşma Azərbaycan toponiminin, necə deyərlər, coğrafi hərəkəti və genişlənmə prosesinin həmin mənbələrdə doğru əks olunduğunu, yəni həmin mənbələrin obyektiv reallığı tarixi baxımdan düzgün əks etdirdiyini deməyə əsas verir.

Araşdırılan mövzuya həsr olunmuş daha bir elmi işi qısa şəkildə nəzərdən keçirmək faydasız olmazdı.

Haqqında danışılan Kerman ostanında yerləşən Şəhre Babək şəhərinin İslami Azad universitetinin Tarix kafedrasının dosenti, doktor Şəhram Pənahəli Xiyavi tərəfindən hazırlanmış "Səfəvi mənbələri əsasında Azərbaycanın şimalı və Qafqazın tarixi coğrafiyası (1455-1501/ 851-907q.)" [22] məqaləsidir.

Məqalədə Səfəvi dövrü mənbələri əsasında Qaraqoyunlu sülaləsinin hakimiyyətinin (1375-1468) son illəri və Ağqoyunlu sülaləsinin hakimiyyəti (1468-1501) illərində Azərbaycanın şimalı, o cümlədən şimal sərhədləri haqqında araşdırmanın nəticələri öz əksini tapmışdır.

Məqalə haqqında yalnız onu demək kafidir ki, burada Azərbaycanın şimalı dedikdə Şimali Azərbaycanın şimal sərhədləri nəzərdə tutulur. Ona görə müəllif sinonim kimi Azərbaycanın şimalı və Şimali Azərbaycan terminlərindən istifadə edir.

Müəllif yazır ki, Səfəvi şeyxləri (Heydər, Cüneyd, İsmayıl Mirzə) birlik və həmrəyliklə **Azərbaycanın Cənubi Qafqazın Dərbənd bölgəsinə qədər olan sərhədlərini** qoruyub saxlamağa çalışırdılar. [22, s.110 ]

Burada diqqəti xüsusi olaraq iranlı müəllifin gəldiyi bir-birini tamamlayan iki nəticə cəlb edir.

Müəllif yazır: "[1] Hər halda tarix boyu əsas əhalisi türk tayfaları olan, Cənubi Qafqazda Dərbənddən İranın mərkəzi rayonlarına qədər ərazini əhatə edən Azərbaycan

ölkəsi nisbətən sabit tarixi coğrafiyaya malik olub. [22, s.111] [2] Bu baxımdan və digər mötəbər tarixi mənbələri araşdıraraq, bu gün biz əsaslı şəkildə əminik ki, Azərbaycan bitişik **coğrafi**, etnik və mədəni bir vahid kimi Qafqazda Dərbənddən indiki İran Azərbaycanının bütün əyalətləri və bəzən də mərkəzi bölgələri (indiki Save rayonu və Ərak ostanı) əhatə edirdi. On doqquzuncu əsrdən bəri bu coğrafi ərazinin sərhədləri və tarixi adlarında geniş miqyaslı dəyişikliklər baş verdiyinə baxmayaraq, bu gün də bu ərazinin əhalisinin əksəriyyəti türkcə danışır və bu, mədəni antropologiya baxımından mühüm mesaj və böyük əhəmiyyət daşıyır". [ 22, s.111]

Deməli, Azərbaycan yalnız vahid bir etno-coğrafi deyil, həm də ayrıca,vahid bir coğrafi anlayışdır. Həmin iki şərt Azərbaycan toponiminin ölkənin bir hissəsinə aid edilməsi fikrinin tamamilə əsassız olduğunu göstərir.

Göründüyü kimi, İran İslam Respublikasında nadir hallarda olsa da, Azərbaycan xoroniminin Araz çayından hər iki tərəfdə yerləşən ərazilərin (hazırki Azərbaycan Respublikası və Cənubi Azərbaycan) uzun əsrlər boyu ümumi adı olduğu haqqında obyektiv elmi araşdırmalar meydana gəlmişdir.

Həmin əsərlərdə, artıq qeyd edildiyi kimi, Aran toponiminin artıq XI əsrdən başlayaraq bir toponim\xoronim kimi unudulmağa başladığı, Azərbaycanın vahid bir ölkə, coğrafi

və etnik-coğrafi ərazi olduğu müvafiq dəlillərlə əsaslandırılmışdır.

## XVIII əsr İran salnaməçisinin dediklərindən

Bütün bunlara baxmayaraq İranda Azərbaycan xoroniminin ölkənin şimal hissəsinə heç vaxt aid edilmədiyinin iddia edilməsini nəzərə alaraq daha bir əsəri nəzərdən keçirməyi lazım bilirik.

Haqqında danışılan Zənd sülaləsinin saray tarixçisi Mirzə Məhəmməd Sadiq Musəvi Nami Esfehaninin "Tarixe gitiqoşa dər tarixe xanedane Zənd" [Zənd sülaləsinin tarixi haqqında] əsəridir. [23]

Üç müəllif tərəfindən yazılmış kitabın əsas müəllifinin dövrünün nüfuzlu nəslinin nümayəndəsi, özünün savadlı, deməli sözlərinə etibar edilən bir şəxs olduğunu, əsərin tarixi əhəmiyyətini nəzərə alaraq müəllif və kitab haqqında nisbətən ətraflı məlumat vermək zəruridir.

**Kitabın müəllifi haqqında**

Müəllif Mirzə Məhəmməd Sadiq Musəvi Nami İsfahani Musəvi seyidlərinin ağsaqqallarından biri və Səfəvi şahlarından birinin həkimi və katibi olmuş Mirzə Məhəmməd Rəhim Həkimbaşının qardaşı oğlu idi.

Onun əcdadları Səfəvi padşahlarının əmri ilə (təxminən hicri 1030 (1621)-cu il) Farsdan İsfahana getmiş və 100 il Səfəvi şahlarının həkimi vəzifəsini yerinə yetirmişlər.

O, dövrünün tanınmış şairlərindən olmuş və Nizami Gəncəvini təqlid edərək "Naminamə" adlı nəzm əsəri olan Xəmsə (beşlik) yaratmışdır. Onlardan ikisi Nizami Gəncəvinin poemalarının adını təkrar edir. Bunlar "Xosrov və Şirin" və "Leyli və Məcnun" məsnəviləridir.

Təbii ki yüksək savada və dünyagörüşünə malik olan bir şəxs Səfəvi dövlətinin süqutundan sonra saraydan kənarda qala bilməzdi. İranda hakimiyyət uğrunda mübarizədən qalib çıxmış Məhəmməd Kərim xan Zənd (1753-1779) onu özünə katib və salnaməçi təyin etmişdir.

Salnaməçi 1204\-1790 cı ildə vəfat edib.

**Kitab haqqında**

Kərim xanın göstərişi ilə salnaməçi onun hakimiyyəti illərinin salnaməsini yazmışdır. Onun yazdığı kitab\salnamə tarix elminə "Tarixe gitiqoşa dər tarixe xanedane Zənd" kimi məlumdur.

Həmin narrativ Zəndlərin hakimiyyəti illəri haqqında ən dəyərli əsər və mənbə hesab edilir, çünki onun müəllifi istisnasız olaraq şahidi olduğu bir çox hadisələri nəql etmişdir.

Kitab üç hissədən ibarətdir. Birinci hissə "Qitiqoşa...." adı ilə, ikinci və üçüncü hissələr birinci hissə ilə birlikdə bir

kitab kimi tanınsa da, həmin kitaba əlavələr kimi məşhurdurlar. Kitabın hər üç hissəsi müxtəlif müəlliflər tərəfindən yazılıb. Birinci hissə və ya əsas hissə “Qitiqoşa...” Mirzə Məhəmməd Sadiq Musəvi Nami İsfahani tərəfindən yazılıb və sülalənin hakimiyyət uğrunda mübarizəsindən Kərim xanın hakimiyyəti və ondan sonrakı bir neçə ili, yəni 1 məhərrəm 1200\4 noyabr 1785-ci ilə qədərki dövrü əhatə edir.

İkinci hissə və ya birinci əlavə Mirzə Məhəmməd Sadiq Naminin tələbəsi Əbdül Kərim bin Əli Rza Əl-Şərif tərəfindən yazılmışdır. Naminin ölümündən sonra Zənd sarayında vəzir vəzifəsində işləyən Mirzə Məhəmmədhüseyn Fərəhaninin əmri ilə Naminin işini davam etdirmişdir.

Birinci əlavə Kərim xanın ölümündən sonrakı və Lütfəli xanın hakimiyyətinin (1789-1795) ortalarına qədərki dövrü əhatə edir 1210\1796-cı ildən sonra yazılıb.

1209\1795-ci ildə Lütfəli Xan Zənd vəfat etdikdən sonra Əbdül Kərim Qacar şahlarına xidmət etmiş və Fətəli şahın (1797-1834) hakimiyyəti haqqında tarix tərtib etmişdi.

İkinci əlavə Lütfəli xan Zəndin hakimiyyətinin son dövrü və Hacı İbrahim Kəlantər (Zəndlər zamanı Şiraz şəhərinin başçısı, Lütfəli xan Zəndi şəhərə buraxmayıb Ağa Məhəmməd xan Qacar tərəfinə keçərək onun sədr-əzəmi olmuş, lakin Ağa Məhəmməd şahın öldürülməsindən sonra Fətəli şahın hakimiyyətinin ilk dövründə hakimiyyəti özü və yaxın qohumlarının əlində cəmləşdirməyə çalışdığından, sülalə

üçün təhlükəyə çevrilmiş və tezliklə hakimiyyətdən uzaqlaşdırılaraq 1801-ci ildə edam edilmişdir) haqqındadır. Həmin əlavə Ağa Məhəmməd Rza Şirazi tərəfindən yazılıb və 1210\1795-ci ildən sonra başa çatdırılıb.

Dövrünün ən savadlı şəxslərindən biri olan Naminin yazdığı salnamə müasir İran tarixşünasları tərəfindən Zənd sülaləsinin hakimiyyətdən əvvəl və hakimiyyət illərinə aid ən mötəbər tarixi qaynaq hesab edilir. İstənilən salnaməçi və tarixçinin yazdıqları, şərh və dəyərləndirmələri eyni zamanda dövrünün ictimai fikrinin inikası hesab edilir. Deyilənlər, haqqında danışılan müəlliflər və ilk növbədə Nami və onun yazdıqları haqqında da doğrudur.

Haqqında danışılan kitab ilk dəfə S.Nəfisinin səyi ilə 1317\1938-ci ildə çap olunub, amma kitabda keçmiş hakim xanədanlardan biri [Qacar sülaləsi] haqqında həqiqətlər yer aldığından çapı dayandırılıb və çap olunmuş nüsxələr yığışdırılıb.

Kitabda Kərim xan Zəndin hakimiyyət uğrunda mübarizəsi, təbii ki, çox geniş yer almışdır. Kərim xanın İranı öz hakimiyyəti altında birləşdirmək məqsədi ilə müxtəlif vilayətlərə və İranda "ölkə" adlandırılan ərazilərə səfərlər edərək bəzilərini silah gücünə tabe etməsi, bəzilərinin tabe olduqlarını bəyan etməsinə nail olması öz əksini tapmışdır. Kərim xan Zənd həmin məqsədlə Azərbaycanın cənubuna (indiki Cənubi Azərbaycana) iki dəfə səfər etmiş və ikinci

səfər (1763) zamanı həmin bölgəni özünə tabe etməyə müvəffəq olmuşdur.

Haqqında danışılan salnamədə Kərim xan Zəndin Azərbaycan səfərləri haqqında geniş məlumat verilmişdir. Müəllif Azərbaycanı "keşvəre vəsi əl bonyan" geniş dayaqları\əsasları olan ÖLKƏ\KİŞVƏR adlandırır. [23, s. 99]

Kişvər müasir fars dilində müstəqil dövlətin ərazisinə deyilir. Müəllif Azərbaycanın uzun əsrlər öz dövləti olmuş bir ölkə kimi tanındığından onu KİŞVƏR adlandırır.

Kərim xanın Azərbaycana ikinci səfərinin son mərhələsi, Urmiya üzərinə hərəkəti haqqında məlumat verən müəllif yazır: "**Azərbaycan mülkünün** əmirləri və rəisləri-Kazım xan **Qaracadaği**... Kərim xanı müşaiyət edirdi və rəiyyət idi, Şahbaz xan Dümbəli və onun qardaşı Əhməd bəy və Pənah xan Cavanşir **qəbul olunmaq** şərəfinə nail oldular. Pənah xan **həmin ölkənin** böyüklərindən və ona tabe əyalətlər **Cavanşir, Qazağ, Borçəlu**, ... məşhur **Şuşa qalası və Xudafərin qalası**. Pənah xan heç bir yağıya xidmət etmədi və tabe olmadı, Kərim xan dövlətini xidmət etməyə layiq bilib, bura gəldi". [23, s. 105]

Göründüyü kimi, hazırda Cənubi Azərbaycanda yerləşən Qaradağ və Şimali Azərbaycanda yerləşən Qazax, Şuşa, Gürcüstanda yerləşən Borçalı Azərbaycan mülkləri kimi qeyd edilir.

Azərbaycan haqqında ümumi məlumat verən müəllif yazır:

**“Məşhur böyük çaylardan biri olan Araz çayı AZƏRBAYCANIN ORTA HİSSƏSİNDƏN AXIR və Xəzər** dənizinə **birləşir\tökülür və həmin çayın o tərəfində yerləşən Babələbvab və vilayətlər çayın o tərəfindəki vilayətlər kimi tanınır və suyun o tərəfindəkilər dedikdə Şirvan, Salyan, Badkube, Quba, Şapuran [Şabran] və Babələbvab [Qapılar qapısı] Dərbənd [vilayətləri] nəzərdə tutulur”. [23, s.110]**

Göründüyü kimi, salnamə yazılan vaxtlarda İranda Azərbaycan deyəndə Azərbaycanın Araz çayından şimalda və cənubda yerləşən əraziləri nəzərdə tutulurdu. Müəllif Azərbaycan məfhumunun həmin anlamda başa düşüldüyünü dəfələrlə qeyd etmişdir. Belə ki, çayın o biri tərəfində olan vilayətləri hər hansı bir ümumi qədim və ya uydurma süni bir toponimlə deyil, sadə dildə, çayın o tayındakı vilayətlər (orijinalda ərəbcə “vilayət” və “biləd” və türkcə “ölkə” terminləri işlədilir və onlar sinonim olaraq vilayət\ölkə mənasında işlənir) adlandırır və onlardan bəzilərini sadalayır. Burada maraqlı cəhət Dəmir qapı \Qapılar qapısı Dərbəndin çayın\suyun o tayındakı vilayət və Azərbaycanın tərkib hissəsi kimi qeyd edilməsidir. Kitabda Azərbaycanın Xəmsədən

(indiki Zəncan ostanı\vilayəti) başlandığı qeyd edilir. "Xəmsə [Əcəm] İraqın qurtaracağı, Azərbaycanın başlanğıcı"dır deyilir. [23, s.256]

Qeyd etmək lazımdır ki, həmin dövrdə istifadə edilən çayın o tayı və bu tayı ifadələri müasir terminologiya ilə Şimali və Cənubi Azərbaycan anlayışlarına tam uyğun gəlir və sonuncular müasir geosiyasi strukturda tam legitim ifadələr hesab oluna bilər. Həmin anlayışlara qarşı çıxmaq əslində İran tarixşünaslığı ənənəsinə ziddir.

Daha sonra, Azərbaycan vilayətlərinin böyüklərindən danışılarkən, onların adları çayın bu tərəfi və o tərəfinə ayrılmadan qarışıq halda sadalanır.

"Azərbaycan ölkəsinin böyük, şanlı əmirləri, hər biri, əlhəğ, ölkə\keşvər\ sahibi, hər biri xodavənde ləşkəri\ordu böyüyü ....Fətəli xan Əfşar və Kazım xan Qaracadağı [Cənub] Pənah xan Cavanşir [Şimal], Nəcəfqulu xan, Şahbaz xan Dümbəli, onun qardaşı Əhməd xan [Cənub], Hacı Əli Məhəmməd xan Marağayi [Cənub], Hacı xan Kəngərliye Naxçıvani, Çuxur Səəd Bəylər bəyi Hüseynəli xan İrəvaninin qardaşı oğulları, Qarabağ bəylərbəyi Şahverdi xan Qacar Ziyadoğlunun qardaşı Rzaqulu xan Gəncei [Şimal]....[23, s.114]

Kitabın əlavə adlanan birinci hissəsində Ağa Məhəmməd Şah Qacarın hakimiyyət uğrunda mübarizəsindən danışarkən Azərbaycan haqqında da məlumat verilir.

Belə ki, birinci Əlavədə deyilir: “MƏMALEKE AZƏRBAYCANın (Azərbaycan məmləkətlərinin) fəthi asan şəkildə müyəssər” olacaq. Azərbaycan əmirləri nifaq yuxusunda və hamısı bir-biri ilə düşmənçilikdə, mühari-bədə... ARAZ ÇAYININ O TƏRƏFİNİN əmirləri tabe ol-maq yolu seçdilər”. [23, s. 334]

Kitabın digər maraqlı cəhəti türk terminlərindən (xüsu-sən hərbi, inzibati-ərazi) geniş istifadə edilməsidir. Misal olaraq ölkə, bölük, oymaq, qoşun, sağ və sol (qanad\cinah), yürüş, qışlaq, yataq, yasaq, gəzək, ağruq, qoruq, eşikağası, salam ağası, elçi, gözlük və s. qeyd etmək olar.

İranda türk sözləri yalnız hərbi, siyasi (status) sferada deyil, demək olar ki, bütün sahələrdə, o cümlədən antropo-nimlərdə, geniş yayılmışdır. Məsələn, Kərim xan Zəndin atasının adı İnaq xan, əmisinin adı Budaq xan idi.

Kitabda İranın əhalisinin etnik tərkibi haqqında müəy-yən məlumat (etnonimləri\ adları) verilir. Həmin dövrdə İranda mövcud olan etnoslardan danışarkən tacik, tazi, əcəm, türk, ərəb, kürd etnoslarının adları çəkilir. Kitabda həmçinin farsan, farsi, parsi terminləri qeyd edilir. Fars dilli əhali əsasən tacik və əcəm terminləri ilə qeyd edildiklərin-dən fars sözü daha çox Fars ölkəsinin/vilayətinin əhalisi mə-nasında işlənmişdir. Burada qeyd edilən əcəm etnonimi Ərəb xilafəti İranı tabe etdikdən sonra fars dilli əhaliyə veri-

lən addır.Tacik etnoniminin müxtəlif izahları olsa da, türklərin fars dilli əhalini yalnız tacik etnonimi ilə adlandırması nəticəsində Orta Asiya dəri\fars dilli əhali tərəfindən endoetnonim kimi qəbul edilmiş və Səlcuqların hakimiyyəti dövründə İranın farsdilli əhalisinə də şamil edilmiş, həmin xalq tərəfindən qəbul olunmuşdur. Bunun ən bariz nümunəsi kitabda fars müəllifin farsları həm əcəm, həm də tacik terminləri ilə qeyd etməsidir.

Həmin dövrdə və ondan sonra fars dilli əhalinin etnoniminin sabitləşmədiyini (əvvəlcə əcəm, sonra tacik) nəzərə alan İran panfarsistləri həmin hadisədən millətçiliyə don geyindirmək üçün istifadə etməyə cəhd edirlər.

Belə ki, müxtəlif səviyyələrdə və müxtəlif dairələrdə, o cümlədən elmi, ideoloji dairələrdə, bəzən İranda fars adında etnosun olmadığı iddia edilir. Fars etnosunun varlığını inkar edənlər İranda farsların deyil, iranlıların\iraniyan olduğunu sübut etməyə çalışırlar. Doğrudan da, İranda XX əsrə qədər fars adında etnosun olduğu dəqiq etnonimlə təsbit edilmir. Mənbə və dövrün yazılarında fars\farsan\farsi daha çox Fars əyalətinə mənsubluğu ifadə edirdi. Farslar yalnız qonşuları tərəfindən deyil, həm də haqqında danışılan salnamədən göründüyü kimi, özləri tərəfindən əcəm, tacik adlandırılırdılar. Farsların etnonimində qeyri-müəyyənlik olsa da, digər etnoslar haqqında bunu demək olmaz. Onlar öz sabitləşmiş et-

nonimləri ilə - türk, kürd, ərəb qeyd edilirdilər. Fars etnosunun etnoniminin sabitləşməməsi faktından millətçi panfarsistlər İran əhalisini və ilk növbədə türkləri iranlı adlandıraraq onların assimilyasiya və son nəticədə bir xalq kimi məhv etməsini əsaslandırmaq məqsədi ilə istifadə edirlər.

Mövzuya qayıdaraq deyə bilərik ki, XVIII əsrin ikinci yarısında, ondan əvvəlki dövrdə olduğu kimi, İranda Azərbaycan anlayışı onun bütöv coğrafiyasını, yəni Araz çayından şimal və cənub ərazilərinin məcmusunu ifadə edirdi. Bunu salnamədə verilən məlumatlar da aydın şəkildə göstərir. Həmin fikri digər mənbələrdə rast gəlinən rəsmi sənədlər və qeydlər də təsdiq edir.

**Bəzi əlavə məlumat**

1. Əslində Azərbaycanın şimal və cənubunun Azərbaycan adlandırılması ənənəsi Sasani sülaləsinin hakimiyyəti (224-651) illərindən başlamışdır.

Sasani hökmdarı I Şapur Ənuşirvanın (531-579) həyata keçirdiyi inzibati və hərbi islahatlar nəticəsində imperiya dörd kusta (tərəf\cəhət - şimal, cənub, qərb, şərq) və 4 hərbi dairəyə [hərbi dairələr üçün bax 24] bölünürdü, Azərbaycan, Albaniya və ətraf ərazilər dördüncü kustu və hərbi dairəni təşkil edirdi. Kustlardan və hərbi dairələrdən üçü cəhətlərlə (Şərq, Cənub, Qərb) adlandırılsa da, biri, yəni dördüncü Arazdan şimala (Xəzəriyyə) və cənuba [Azərbaycan] ona bi-

tişik ətraf ərazilər - cənub-şərq və şərq əraziləri eyni zamanda Xəzərin cənubunu əhatə edən ərazi Azərbaycan adlanırdı. [Kust üçün bax: 25]

Pəhləvi əlifbası ilə orta fars (pəhləvi) dilində yazılmış yazının mətnində Azərbaycan kustu haqqında deyilir: "Dər Kuste Azərbaycan\Azərbaycan kustunda **Azərbaycan şəhristanı Azərbaycan ordusunun generalı\sepəhbodu İrəngəşsb tərəfindən salınmışdır.**

**Gənzək şəhristanı Əfrasiyab Turani tərəfindən salınmışdır.**

**Amol şəhristanı Zındıq Pormərg tərəfindən salınmışdır və Espitman oğlu Zərdüşt həmin şəhərdən idi". [Eyni mətn üçün bax: 26]**

**Mətnə yazılmış şərhdə Azərbaycan şəhristanı ifadəsinin Ərdəbil kimi başa düşülməsi ehtimal olunur.**

**Mətnin bizim mövzumuz baxımından ən maraqlı cəhəti Azərbaycanın\Atropatenanın paytaxtı Qazaka şəhərinin Turanlı Əfrasiyab tərəfindən salındığının qeyd edilməsidir. Mətndə daha bir neçə şəhərin banisi kimi qeyd edilən Əfrasiyab türk və məlun adlandırılır.**

**Əfrasiyab məsələsinə tarixi baxımdan yanaşmadan onu qətiyyətlə demək olar ki, mətn yazılanda Əfrasiyab türk hesab edilir və türk hökmdarlarından biri kimi qeyd edilirdi. Buradan belə nəticəyə gəlmək olar ki, mətn yazılanda Atropatenanın ilk hökmdarlarından birinin**

**türk olduğu, deməli türklərin vətəni olduğu ideyası mövcud idi. Mətndə Ərdəbilin fars sərkərdəsi, Qazakanın isə türk hökmdarı tərəfindən salındığı vurğulanır.**

**Bu nadir tarixi mətn Azərbaycanın vahid ölkə olmaqdan əlavə türklərin \turanlıların vətəni olması fikrini də təsdiqləmiş olur.**

2. Fətəli şahın 1799-cu ildə Abbas Mirzəni vəliəhd, Naib əs-Səltənə (Regent) və Azərbaycan hakimi təyin etməsi barədə fərmanı haqqında məlumat verən salnaməçi yazır ki, Fətəli şah Qaflankuhdan **Dərbəndə** qədər geniş sahəsi olan **Azərbaycan məmləkətinin hakimiyyətini** şahzadə Abbas Mirzə Naib əs-Səltənəyə verdi. [27, s. 642]

3. Fətəli şah rus-İran müharibəsinin birinci mərhələsinin (1804-1813) sonuna doğru Abbas Mirzəyə məktubunda yazırdı:

"Mən sizi **Azərbaycana** ona görə xidmətə göndərdim ki, özüm burada rahat olum. Əgər **ORANI [Azərbaycanı] qorumaq** gücünüz yoxdursa, bəri başdan xəbər edin, özüm ora gəlim. Onda siz ya məni müşayiət edəcəksiniz, ya da İraq\əcəm\ vilayətində və bu tərəflərdə xidmət edəcəksiniz. Mən özüm vilayəti və sərhədi qorumaq işinin öhdəsindən gələrəm. Hər şeyiniz var, "öz işlərinizi qaydaya salın və **Vilayətinizi** qoruyun". ( 28, s.14)

4. Azərbaycan xanlarının Şərqi Gürcüstanın valisi İraklinin İrəvana yürüş etməsi və xüsusən Rusiya ilə yaxınlaşmasından ciddi narahatlıq keçirən Osmanlının Azərbaycan xanlarına ittifaq təklifinə cavab məktublarında onların Azərbaycan anlayışı və onun hüdudları haqqında təsəvvürləri öz əksini tapmışdır. Həmin məktublarda Azərbaycan termini ilə bağlı nümunələri diqqətə çatdırmaq yersiz olmazdı.

Salmas hakimi Salman Dümbəli Osmanlı sultanı I Əbdül Həmidə (1774-1789) yazdığı məktubda "Azərbaycan məmləkətləri, xüsusən İrəvan qalası", "Azərbaycan xanları və sultanlarının hamısı" [29, s. 66], Urmiya hakimi Məhəmmədqulu xanın Osmanlı sədr-əzəminə məktubunda Gürcüstan hakimi İraklinin İrəvana yürüşü və "Azərbaycan əhalisi ilə pis davranması" [29, s. 69], Quba xanı Fətəli xanın 1779-cu ildə Osmanlı sədr-əzəminə məktubunda gürcü çarı İraklinin "**Azərbaycan ölkəsinə"** təcavüz etməsi və "**Azərbaycan xanları və Dağıstan əhalisinin** İrakliyə qarşı birləşməsi". [29, s. 67] ifadələri yer almışdır.

Onu da qeyd etmək lazımdır ki, məktublar haqqında məlumat verən və onların surətini çap edən müəllif özü də Şimali Azərbaycanı Azərbaycanın bir hissəsi hesab edir. Belə ki, müəllif mətnində nəzərdən keçirilən dövrdə Azərbaycanın Rusiya ilə həmsərhəd [29, s.61], Gürcüstanla qonşu [29, s. 62) olduğunu vurğulayır.

Yuxarıda verilmiş qeydlərdə diqqəti cəlb edən əsas cəhət nəinki Azərbaycandan kənarda olan fars müəlliflərinin, həm də Qacar şahı və Azərbaycan xanlarının özlərindən əvvəlki dövrlərdə olduğu kimi, bir Azərbaycan ölkəsini tanıdıqları üçün Azərbaycanı "Azərbaycan" adlandırmalarıdır.

"Azərbaycan" termini Şimali Azərbaycanda Rusiyanın Şimali Azərbaycanı işğal etməsindən sonra vahid Azərbaycan ideyasının davam etməsinin qarşısının alınması məqsədi ilə rus dilində rəsmi və digər məzmunlu ədəbiyyatdan çıxarılmışdır. Halbuki rus rəsmi sənədləri və digər ədəbiyyatda həmin dövrə qədər Şimali Azərbaycan əraziləri Azərbaycan toponimi ilə qeyd edilirdi.

Şimali Azərbaycan ictimai fikrində "Azərbaycan" termininin Şimali Azərbaycana şamil edilməsi ənənəsi işğaldan təqribən 60 il sonra XIX əsrin 80-ci illərindən bərpa edilməyə başlamışdır.

Bir mühüm cəhəti də qeyd etmək lazımdır. Belə ki, Azərbaycanın Araz çayından şimalda və cənubda yerləşən hissələri bütöv bir coğrafi rayon təşkil edir. Onun sərhədləri təbii sərhədlərlə - şimalda Qafqaz, cənubda Zaqros və şərqdə Elburs dağları və Xəzər dənizi ilə müəyyən edilir.

Yəni Azərbaycan yalnız etnik, dil, din və mədəni baxımdan deyil, həm də coğrafi baxımdan vahid bir ərazi idi və ərazidir.

# NƏTİCƏ ƏVƏZİ

İranda son dərəcə azsaylı elmi yazıların və bir sıra əlavə məlumatların nəzərdən keçirilməsi əsasında aşağıdakı ilkin nəticəyə gəlmək olar.

Artıq VI əsrdə Sasani dövlətində Şimali və Cənubi Azərbaycan bütöv bir inzibati-ərazi vahidi və hərbi dairə kimi qeyd edilir. Həmin bölgü ilə Azərbaycanın şimalının Azərbaycan adlanması ənənəsinin əsası qoyulmuş oldu.

İslamı Azərbaycana yayan ərəblər həmin ölkəni özlərinə tabe etdikdən sonra Sasani dövründə mövcud olan inzibati-ərazi bölgüsünü saxlamış və qeyd edilən bölgü hicri 3-cü əsrin (miladi X əsrin) sonuna qədər qüvvədə qalmışdı.

Bunun belə olduğunu, erkən ərəb-islam coğrafiyaşünaslarının və tarixçilərinin bir çoxunun Azərbaycanın ərazisi haqqında verdiyi məlumatlar (Həmədandan-Dərbəndə qədər) təsdiqləyir. Bundan sonrakı dövrlərdə Azərbaycan toponiminin Araz çayının hər iki tərəfinə aid olduğu adi hal alır və demək olar ki, dövrün bütün tarixi, çoğrafi yazılarında, salnamələrində geniş əks olunmuşdur.

Səfəvi mənbələri göstərir ki, Qaraqoyunlu və Ağqoyunlu sülalələrinin hakimiyyəti illərində Araz çayının şimalı və cənubu bir ölkə - Azərbaycan ölkəsi idi və Azərbaycan adlandırılırdı.

Aydındır ki, qeyd edilən dövrdən (Qaraqoyunlu və Ağqoyunlu dövlətlərinin mövcud olduğu dövr - XIV-XV əsrlər) sonra da Araz çayından şimalda və cənubda yerləşən ərazilər bir dövlət, bir ölkə, bir etnocoğrafi ərazi - Azərbaycan idi.

Azərbaycan növbəti Azərbaycan\türk sülaləsi olan Səfəvi sülaləsinin təsis etdiyi dövlətin (1501-1736) ərazisi idi. Başqa sözlə, Azərbaycan yalnız ölkə-coğrafi ərazi yox, həm də vahid dövlətin adı idi. Səfəvilərdən sonra Azərbaycan dövlətyaratma statusunu itirsə də, ölkə, etnik-coğrafi ərazi xüsusiyyətlərini saxlayırdı. Azərbaycan bir ölkə kimi ya vahid bir inzibati ərazi, ya da bir sıra inzibati ərazi vahidləri məcmusu kimi mövcud olurdu. XVIII əsr İran mənbəsi bunu əyani şəkildə nümayiş etdirir. Ona görə də İranda 1828-ci ilə kimi Azərbaycanın şimalı və cənubu Azərbaycan toponimi ilə qeyd edilirdi. Hətta XX əsrin birinci yarısında Azərbaycan xoroniminin Arazdan şimalda və cənubda yerləşən əraziyə aid olması fikri qeyd edilmişdir.

İranın panfarsist hakim millətçi “alimləri və tədqiqatçıları” ərəb və fars dilli mənbələri yaxşı bildikləri halda, hansı əsasla Azərbaycan toponiminin heç vaxt Araz çayının şimalına aid olmadığı kimi cəfəng bir iddianı təkrar edib əsaslandırmağa çalışmaqdan usanmırlar.

Burada tarixi-elmi həqiqət deyil, millətçi, panfarsist dairələrin dar mənada başa düşülən etnik maraqlarının əsas rol oynadığı özünü aydın göstərir. Onların öz qarşılarına İranda yaşayan, yaşadıqları ərazilərin köklü və yerli xalqları olan qeyri-fars xalqlarının varlığına son qoymaq məqsədi ön plana çıxır. Hakim fars milləti zorakı assimilyasiya və ya ***linqvosid**** ***və etnosid***** siyasəti yeridərək, Cənubi Azərbaycan türklərinə Cənubi Azərbaycanın Azərbaycan Respublikası ilə heç bir bağlılığı olmadığı fikrini təlqin edərək, onların həmin siyasətə müqavimətini zəiflətmək məqsədi güdür.

Panfarsistlər niyə Azərbaycanı bütöv bir coğrafi ərazi kimi deyil, yarımçıq bir ərazi kimi qələmə verməkdə israr

---

* Linqvosid- etnosidin bir növü olub müxtəlif vasitələrlə hər hansı bir xalqın etnik dilinin məhv edilməsinə yönəmiş dövlət siyasətidir.

** Etnosid-xalqın milli şüuru, milli kimliyini məhv etmək siyasəti. Etnosid xalqın tarixi yaddaşını və ya onun əhəmiyyətli bir hissəsinin itirilməsi, bəzi öz etnonimini (endoetnonimini), dili, mədəniyyətinin məhv edilməsinə yönəlmiş tədbirlər məcmusu və son nəticədə xalqın milli mədəniyyətinin və milli kimliyinin məhv edilməsinə qarşı yönəlmiş dövlət siyasətidir.

edirlər? Bu suala cavab verməzdən əvvəl bir cəhətə də diqqət yetirmək çox vacibdir.

Belə ki, İranda və İraqda Kürdistan, İranda və Pakistanda Bəlucistan inzibati-ərazi vahidləri vardır. İranda indiyə kimi heç kim İrandan kənarda mövcud olan Kürdistan və Bəlucistanın Kürdistan və Bəlucistan adlanmadığı haqqında bir cümlə belə yazmayıbdır.

İndiki İranda həmçinin uzun əsrlər Ərəbistan, Türkməniyyə\Türkmənsəhra adlı ərazilər mövcud olmuşdur. Həmin adda əsas ərazilər İrandan kənarda mövcud olduğundan heç kim həmin ərazilərin Ərəbistan və Türkmənistan olmadığını iddia etməyə cürət etməmişdir. Əvəzində İranda olan həmin inzibati-ərazi vahidinin adı (Ərəbistan>Xuzistan)) dəyişdirilmişdir.

Azərbaycan ölkəsinə və onun xalqına münasibətdə panfarsistlər, fars millətçiləri və şovinistləri öz çirkin məqsədlərinə, Cənubi azərbaycanlıların bir xalq kimi varlığına son qoymaq məqsədinə nail olmaq üçün bütün mümkün vasitələrdən istifadə etmişlər və etməkdə davam edirlər.

Onlar Azərbaycan xalqına qarşı mübarizənin tərkib hissəsi kimi "Azərbaycan" toponiminə qarşı 3 istiqamətdə mübarizə aparırlar.

1. Şimali Azərbaycanın Azərbaycan adlanmasına qarşı "elmi"- ideoloji mübarizə

2. Azərbaycanın (Cənubi) vahid inzibati-ərazi vahidi kimi qalmasına qarşı hüquqi-inzibati mübarizə

3. Azərbaycan sözünün (Cənubi Azərbaycan) bir toponim kimi işlənməsinə qarşı informativ mübarizə

Həmin mübarizənin birinci istiqaməti sahəsində, artıq qeyd edildiyi kimi, müxtəlif səviyyəli, səpkili, həcmli, xarakterli, lakin eyni məzmunlu geniş ölçüdə ədəbiyyatın yaradılması davam etdirilir.

Bu istiqamətdə əldə edilən "***nailiyyətlər***" Şimali Azərbaycan üçün icad edilən çoxsaylı adlarda: Qafqaz, Aran, İrane Şimali, Qarabağ, Bakı Respublikası, "saxta Azərbaycan" terminlərində öz əksini tapmışdır.

Həmin istiqamətin Şimali Azərbaycanda Azərbaycan toponiminin siyasi, coğrafi, milli\etnik anlamda işlənməsinə heç bir təsiri olmadığı aydın olduğundan ilk nəzərdə mənasız görünə bilər. Lakin burada məqsəd iranlılarda, xüsusən də farslar və onların millətçi dairələrində Azərbaycana qarşı daim düşmənçilik əhval-ruhiyyəsini gündəmdə saxlamaq və lazım gəldikdə onu aktuallaşdırmaqdır. Zahirən Şimali Azərbaycana qarşı yönəlmiş birinci istiqamət, artıq qeyd edildiyi kimi, Cənubi azərbaycanlıların mili-azadlıq, milli

kimlik uğrunda mübarizəsini zəiflətmək və onların hakimiyyətyönümlü dairələrində Şimali Azərbaycana qarşı düşmənçilik hissi yaradıb gücləndirmək məqsədinə xidmət edir.

İkinci istiqamət, Azərbaycan ölkəsinin cənub hissəsinin - Cənubi Azərbaycanın və ya Azərbaycan əyalətinin bir neçə inzibati-ərazi vahidinə parçalanması, onun inzibati-ərazi bütövlüyünü, etnik-ərazi kimliyinin, tarixi kimliyinin bütövlüyünü, etnik, dil, mədəni birliyini zəiflətmək, parçalamaq, aradan qaldırmaq məqsədinə xidmət edir. İkinci istiqamətin davamı olaraq Azərbaycan toponiminin əhatə etdiyi ərazinin yalnız bir hissəsində həmin toponimi – Şərqi və Qərbi terminləri əlavə edilməklə məhdudlaşdırılmasıdır. Burada Azərbaycan sözü saxlansa da, parçalanmış şəkildə mövcud olaraq bütöv inzibati ərazi və siyasi məzmundan xali edilərək  həmin toponimin müstəqil şəkildə işlənməsinin qarşısı alınır.

Azərbaycan toponiminə qarşı mübarizənin Şimali Azərbaycana heç bir təsir göstərmək imkanı olmadığını nəzərə alsaq, deyə bilərik ki, həmin mübarizə Cənubi Azərbaycana təzyiqin təsir gücünü artırmağa hesablanmışdır.

Azərbaycan toponiminə qarşı geniş mübarizə Cənubi azərbaycanlıların milli kimliyinə, milli hərəkatına, milli-

mədəni fəaliyyətinə qarşı yönələrək, onların hakim millətçi, şovinist, azərbaycanlılara qarşı etnosid və linqvosid siyasətinə qarşı mübarizəsinin zəiflədilməsinə Cənubi azərbaycanlıların assimilyasiya və son nəticədə etnik varlığına son qoyulmasına nail olmağa yönəlibdir.

Lakin Cənubi azərbaycanlıların etnik və milli kimliyinə uydurma nəzəriyyələr, heç bir tarixi əsası olmayan ideoloji quraşdırmaların köməyi ilə son qoyulması sahəsində bütün fəaliyyətlərin tamamilə əks nəticə verəcəyi unudulmamalıdır.

Azərbaycanlılar özlərinin əsrlər boyu farsların fiziki varlığına, fars dilinin qorunması və mədəni inkişafına göstərdikləri dəstək və himayə müqabilində onlara qarşı göstərilən nankorluğun səbəblərini hələ də axıracan düzgün başa düşə bilmirlər.

Türk\Azərbaycan sülalələrinin İranda min illik hakimiyyəti dövründə hərbi xidmətdən azad olan farslar, bəzi istisnalarla, tamamilə normal demoqrafik şəraitdə yaşayıb çoxalmışlar. Bunun müqabilində döyüşçü olan azərbaycanlılar ardı-arası kəsilməyən müharibələrdə çoxsaylı gənc kişilərin həlak olması səbəbindən normal reproduksiya şəraitindən məhrum idilər.

Azərbaycanlılar  min il ərzində fars dilinə qarşı nəinki heç bir məhdudiyyət qoymamış, əksinə, onun fəaliyyətinə və fəaliyyət sahəsinin genişlənməsinə hərtərəfli dəstək göstərmişlər. Ona görə son yüz ildə hakimiyyətdə olan farsların min il onların dilini qorumuş türklərin\azərbaycanlıların etnik dilinə qarşı görünməmiş və çox qeyri-etik mübarizə aparmalarının səbəbini doğru-dürüst anlamaq olmur. Farsların gizli məqsədləri düzgün dərk edildiyi halda, ana dili uğrunda mübarizə tamamilə yeni mərhələyə qədəm qoyaraq, yeni vasitələrlə həyata keçirilməyə başlayacaqdır. Ana dili işlənməyən sahələrdə milli mədəniyyətdən və onun inkişafından danışmaq əsassız olduğuna görə milli mədəniyyətin əsas bazası və vasitəsi olan ana dilinin həbsdən xilas olmasının yeganə yolu onun uğrunda mübarizənin daha böyük enerji ilə davam etdiriləcəyini şərtləndirir.

Cənubi azərbaycanlılar farsların İranın ərazi bütövlüyü ideyası ilə azərbaycanlılara qarşı hərtərəfli və onun bir xalq kimi varlığına qarşı yönəlmiş təzyiqlərin mahiyyətinin ərazi bütövlüyü ilə heç bir əlaqəsi olmadığını dərk edərək,  İranın ərazi bütövlüyünə qarşı yeganə təhdidin farslar tərəfindən irəli gəldiyini anlayaraq, öz milli hüquqları uğrunda daha qətiyyətlə mübarizə aparmağa başlamışlar.

Bütün bu deyilənlər ətrafında fars millətçiləri dərindən düşünməsələr, götür-qoy etməsələr və antihumanist siyasətin doğura biləcəyi nəticələri nəzərə alaraq indiyə kimi həyata keçirdikləri və daxili düşmən yaratmaq məqsədinə xidmət edən fəaliyyətlərinə yenidən baxmasalar, sonra gec olacaq. O zaman yalnız özlərini qınamalı olacaqlar.

Yalanlar, ədalətdən uzaq, qərəzli hədəflər üzərində qurulan siyasət mütləq belə siyasət yeridənlərin gözlədiklərinə əks nəticə verəciyini unutmasınlar. SONRA DEMƏSİNLƏR Kİ, XƏBƏRDARLIQ ETMƏMİŞDİLƏR.

# ƏDƏBİYYAT

1.Vidadi Mustafayev. Azərbaycan Xalq Cümhuriyyəti - İran münasibətlərinin ideoloji "problemləri" – Azərbaycan Demokratik Respublikasının 100 illiyinə həsr edilmiş "Şərqin ilk demokratik respublikası" mövzusunda Elmi Konfransın materialları. Bakı, 2019, 264 s. kitabında, s.45-190.

2. Solmaz Rüstəmova-Tohudi. Cümhuriyyətin "Azərbaycan" adlandırılması və onun tarixi əhəmiyyəti. 2018,176 s.

3. Документы внешней политики СССР. - М.: Государственное изд-во политической литературы. 1958, - т. 2, - с. 537.

4. Məhəmməd Cavad Məşkur. Hodude tarixiye Azərbaycane İran\İran Azərbaycanının tarixi sərhədləri.

Məcəlleye Bərrəsihaye tarixi,xordad ta şəhrivər 1348. Şomareye 20 və 21. s.49-64. http://ensani.ir/file/download/article/20100912151326-238.pdf

5. http://ensani.ir/file/download/article/20140616144106-9945-24.pdf

Hamed Nouhexan. Meyarhaye təqsimate keşvəri dər doureye Pəhləvi 1\1-ci Pəhləvi dövründə inzibati ərazi bölgüsünün meyarları Xerədnamə jur.1391. № 9. s.113-136.

6. academia.edu Ruzbeh Azərqun\ pdf Comhuriye cəəllliye Azərbaycan\Saxta Azərbaycan Respublikası\\ 2019.

Vaşinqton unversiteti\ Zəbanha və mədəniyyəthaye Xavəre miyane.

7. İlahə Kulayi. Məryəm Nezami, Pantorkism: bərsaxtə-ne hoviyyət və şeklgiriye Comhuriye Azərbaycan (1890 ta 1920/ Pantürkizm: Azərbaycan Respublikasının kimliyinin yaradılması və formalaşması (1890-1920). Motaleate Avrasiyaye mərkəzi, 1398. №1, s.459-478.

**Bəzi çıxarışlar:**

"Əvvəllər "Aran" adlanan rayon üçün "Azərbaycan" adının seçilməsi, [s. 459].

"Arazdan o tərəfdəki bölgələrin tarixi adı "Aran" olub." [s. 466].

"Bu adın osmanlıların təklifi ilə verildiyinə dair dəlillər var; Çünki Azərbaycanla İranı öz torpaqlarına bağlamaq istəyirdilər" [s. 473].

8. https://www.gisoom.com/book/1438908.

Keykavus Human."Tork ne "torkzəban", "Azərbay-can" ne "Aran"\ "türk" yox, "türk dilli" "Azərbaycan" yox "Aran". \1386\188 s.

Kitab haqqında:"Aran" və ya "Eran" Mazandaran dənizi ilə Ermənistan ölkəsi arasında yerləşən və bu gün Azərbay-can Respublikası kimi tanınan ərazidir. Azərbaycan Respub-likası Rusiyada çarizmin süqutundan sonra bu torpağa

verilən addır. Bu zamana qədər coğrafiyaşünasların, tarixçilərin, şairlərin və səyyahların heç bir əsərində belə bir ad çəkilməmişdir.

9. https://elmnet.ir/article/470099607-6182. Ruzbeh Azərqun\ 1398.

Comhuriye cəəlliye Azərbaycan-eskəne 10 sənəde tarixi əz piş əz milad ta tarixe moaser\Saxta Azərbaycan Respublikası-miladdan müasir dövrə qədər 10 tarixi sənədin skanı\konfrans məqaləsi.

10. https://www.iichs.ir/fa/news/21489\\

Pəjuheşkədeye tarix moasere İran\ 21 azər 1400.

Doktor Həqqani dər həmayeşe "bərrəsiye təhəvvolate Qafqaz – qozəşte, hal və çeşməndaze fəraru"\Dr.Həqqani "Qafqazda baş verən hadisələrin tədqiqi; Keçmiş, indi və gələcək perspektivlər" mövzusunda konfransda:

"Azərbaycan Respublikası əvvəldən İranı parçalamaq niyyəti ilə yaradılmışdır"\ "Qafqazda baş verən hadisələrin tədqiqi; Keçmiş, indi və gələcək perspektivlər" adlı beynəlxalq konfrans haqqında hesabat.

İki günlük beynəlxalq konfrans\20 nəfər, o cümlədən Azərbaycandan olan 3 separatist və Ermənistandan məşhur antiazərbaycan ideoloqlarından biri çıxış edibdir.

Çıxış edənlərdən biri, Xosrov Motəzəd, "Məşhur və görkəmli İran tarixçisi" kimi təqdim edilir, çıxışının mövzusu "Azərbaycan adı" olan məruzəçi deyir: "Azərbaycan adı-

nı tam etinasız və yersiz qoyublar”. Daha sonra Bartolda istinad edir: “Qafqaz Azərbaycanının adı yalnız rus inqilabından sonra istifadə edilmişdir. Azərbaycan adı ona görə seçilib ki, Azərbaycan Cümhuriyyətinin yaranması ilə İran Azərbaycanı onunla birləşəcək”. “Mən Bartolddan daha aydın\rouşən tarixçi tanımıram”. Soruşdular ki, Azərbaycana ad qoymaq lazım olsa, nə qoymalıydılar, cavab verdi: “Arandan gözəl ad yoxdur. Ruslar yerüstü və yeraltı sərvətinə görə Cənubi Azərbaycanı İrandan ayırmaq istəyrdilər”.

11. https://khabaresobh.ir/?p=10944\ 06 ordibeheşt 1400\ 2021 Pasox be yek suale tarixi. “Aran və Şirvan” velayəti əst əz Azərbaycan?!

Bir tarixi suala cavab: “Aran və Şirvan” Azərbaycan vilayətidir?!

Çıxarış: “Tarix qrupu: Tarixi sənədlərdən və mənbələrdən göründüyü kimi, bu gün tarixi baxımdan səhvən Azərbaycan Respublikası adlandırılan Aran torpağı,

Azərbaycan və Aran heç vaxt bir iqlimdə və ya coğrafi məkanda olmayıb ki, onları bir hesab etsinlər”.

12. İnayətulla Rza. Azərbaycan və Aran (Albaniyaye Qafqaz) \Azərbaycan və Aran (Qafqaz Albaniyası) Tehran XİN 1361\1982\\1399\2020 yeni çap\

13. İnayətulla Rza. Aran əz dourane bastan ta ağaze əhde Moğol.\ Aran ən qədimdən Monqol dövrünə qədər. \ Tehran. 1380\2001

14. https://psri.ir/?id=kbjae29r\ 28 azər 1399

Siyasi araşdırmalar və tədqiqatlar institutu. İnayətulla Rza. Dər bareye qozardəne name Azərbaycan bər sərzəmine şemaliye rud Ərəs dər Qafqaz. Əz Aran ta Azərbaycan. Qafqazda Araz çayından şimal torpağına Azərbaycan adının verilməsi haqqında.

Arandan Azərbaycana

15.https://www.iichs.ir/fa/news/5619 Həmayeşe beynəlmeləliye sədomin salgərde doureye nəxoste esteqlale comhurihaye Qafqaz (1918-1920). (Azərbaycane Qafqaz, Ərmənestan və Qorcestan). 16 ordibeheşt 1397\ 6 may 2018 \ Qafqaz respublikalarının (Gürcüstan, Ermənstan, Qafqaz Azərbaycanı) müstəqilliyinin birinci mərhələsinin (1918-1920) yüz illiyi mövzusunda beynəlxalq konfrans

16. Layeheye tasise ostane Ərdəbil (Ərdəbil vilayətinin təsis edilməsi layihəsi). http://nazarat.shora-rc.ir

17.http://ical.ir/index.php?option=com_mashrooh&view=session&id=1724&page=30384&Itemid=38. Məclese şuraye eslami doureye 4 cəleseye 69\İslam Şura məclisi,dördüncü çağırış,iclas № 69 22 10 1371\ 12.01.1993

18.http://ical.ir/index.php?option=com_mashrooh&view=session&id=1724&page=30384&Itemid=38. Məclese şuraye eslami doureye 4 cəleseye 69\ İslam Şura məclisi, dördüncü çağırış,iclas № 98. 22 01 1372\ 11.04.1993

19. Sərdariniya. Səməd. Aran velayəti əst əz Azərbaycan\Aran Azərbaycanın bir vilayətidir. İSC. 1383.

№ 642. s.196-201; həmçinin http://www.cloob.com\c\turks\98464

20. Raşedi. Həsən. Azərbaycane tarixi və məhdudeye an əz nəzər movərrixin\Tarixi Azərbaycan və tarixçilərə görə onun sərhədləri. 24 may 2015. http://iranglobal?info\comment\5155
21. https://uria2.blog.ir/1394/06/0 Əziz Talei, Urmiyə universitetinin tarix kafedrasının müəllimi.

Hodud o soğure Azərbaycan dər doureye Eslami\İslam dövründə Azərbaycanın sərhədləri. mənbə: uria2.blog.ir\ 9 şəhrivər 1394\2015

22.https://jh.mahallat.iau.ir/article_682077_53ed6fc97 ee50ed2163ddb8e69f7b638.pdf. Doktor Şəhram Pənahi Xiyavi. Coğrafiyaye tarixiye şemale Azərbaycan və Qafqaz bər payeye mənabeye əsre Səfəvi (1455-1501\ 851-907) \Qafqaz və Azərbaycanın şimalının tarixi coğrafiyası, Səfəvi dövrü mənbələri əsasında, Fəslnameye elmi pəjuheşi tarix. 1400\2021 № 610, s.109-128 .

23. Mirzə Məhəmməd Sadiq Musəvi Nami Esfehani. Tarixe gitiqoşa dər tarixe xanedane Zənd\Zənd sülaləsinin cahangirlik tarixi.\ Eqbal. \1368. IV çapı 464 s.

*dnl1.tebyan.net/Library/Books/pdf/Persian/8d0f2afc16 e74e436cb9f5ae90735a14.pdf*

24. Мишин Д. Е. Хосров I Ануширван (531–579), его эпоха и его жизнеописание и поучение в истории Мискавейха.Институт востоковедения РАН. – М.: ИВ

PAH, 2014. – 696 c.;c.359]\ https://dokumen.pub/i-531579-9785892825887.html

25.https://virgool.io/@M_yekehtaz Şəhrestanhaye İran-şəhr/ İranşəhr şəhərləri /

İranşəhr şəhərləri - İranşəhr şəhərlərinin tarixi və siyasi coğrafiyası haqqında Sasanilərin hakimiyyətinin son əsrlərindən günümüzə qalan yeganə mətn;

26.https://database-aryana-encyclopaedia.blogspot.com/2010/06/blog-post_17.html\Şəhrstanhaye İranşəhr\ İranşəhr şəhərləri.

27.Mirxond Məhəmməd ben Xavənd şah. Rouzat əs-Səfa, Molheqat.1270h.q.\1853.

28. Bədii. Pərviz. Nameye Fəthəli şah Qacar be fərzəndəş Abbas Mirzə\ Fətəli şah Qacarın oğlu Abbas Mirzəyə məktubu. Ketabdari. Arşiv və nosxe pəjuhi. Gəncineye əsnad. 1373. № 16. s.11-15\ s.12-15( birinci sütun) məktubun mətni

29. http://ensani.ir/file/download/article/20120326120215-1152-163.pdf Məhəmmədrza Nəsiri. Monasebate xanate Azərbaycan ba douləte Osmani dər əvaxere doureye Zəndiye\Azərbaycan xanlıqlarının Zənd dövrünün axırlarında Osmanlı dövləti ilə münasibətləri. Peyke nur 1384\2005. Qış əlavəsi. s.61-72.

# MÜNDƏRİCAT

**GİRİŞ ƏVƏZİ** ............................................................ 3

Azərbaycan xoronimine qarşı mübarizənin
birinci mərhələsi (Şimali Azərbaycan) ......................... 5

Azərbaycan xoronimine qarşı mübarizənin
ikinci mərhələsi (Cənubi Azərbaycan) .......................... 8

Azərbaycan xoronimine qarşı mübarizənin
üçüncü mərhələsi (Şimali və Cənubi Azərbaycan) ....... 12

İranda Azərbaycan toponiminə obyektiv
elmi yanaşmalar ............................................................ 21

**NƏTİCƏ ƏVƏZİ** ....................................................... 46

**ƏDƏBİYYAT** ............................................................ 55

VİDADİ MUSTAFAYEV

# BİR DAHA VAHİD BÜTÖV AZƏRBAYCAN ƏRAZİSİ HAQQINDA

(*“ARAZ ÇAYI AZƏRBAYCANIN ORTASINDAN AXIR!!!”*)

(“رود ارس در وسط آذربایجان جاری...“)

Kompüter tərtibçisi: *Vüsal Quliyev*
Bədii tərtibat: *Afət Əsgərqızı*

Formatı: 60x84 $^{1}/_{16}$
Həcmi: 4 ç.v.
Sifariş: 5
Tirajı: 200
Qiyməti müqavilə
əsasında

Red N Line MMC tərəfindən hazır diapozitivlərdən
istifadə olunmaqla çap edilmişdir.